**Macarıstanın Dövlət Xidmətləri Universiteti 2024-cü ilin yazında keçiriləcək Lüdovika Alimləri Proqramına qəbulu açıq elan edir**



**Ümumi məlumat**

Macarıstanın aparıcı universitetlərindən biri olan Dövlət Xidmətləri Universiteti tərəfindən 2024-cü ilin yazında Lüdovika Alimləri Proqramı təşkil ediləcəkdir.

Dövlət Xidmətləri Universiteti siyasi elmlər, hərbi elmlər, informasiya cəmiyyəti, fəlakətlərin idarə edilməsi tədqiqatları, kibertəhlükəsizlik, dövlət idarəetməsi, milli təhlükəsizlik tədqiqatları, beynəlxalq tədqiqatlar, hüquq-mühafizə, strateji tədqiqatlar, su elmləri üzrə bakalavr və magistratura təhsili, eləcə də tədqiqat aparmaq imkanları təmin edir. Qaliblər bir həftə ərzində mühazirə oxumağa, yerli fakültə və ya tədqiqat institutları tərəfindən təşkil olunacaq seminarlarda və peşəkar müzakirələrdə iştirak etməyə dəvət olunacaqdır. Proqramın məqsədi Mərkəzi və Şərqi Avropadan olan akademik sahədə çalışan şəxslər, tədqiqatçılar və ekspertləri bir araya gətirərək ideya mübadiləsinə şərait yaratmaq və onları universitetin fəaliyyəti barədə məlumatlandırmaqdır.

**Müddət:** 18-22 mart, 2024-cü il

**Universitet:** Macarıstan Dövlət Xidmətləri Universiteti

**Maliyyələşmə:** Təqaüd proqramı səfər, yaşayış yeri və yemək xərclərini (səhər yeməyi və nahar) əhatə edir. Əlavə olaraq 1000 avro qonarar verilir.

**Sahələr:** Yalnız seçilmiş sahələrdən müraciətçilər qəbul edilir.

Ətraflı: keçid

**Meyarlar:**

- İngilis dili biliyi (C1);
- Azərbaycan Respublikasının vətəndaşı olmaq;
- Keçiddə adı çəkilən sahələrdə beynəlxalq səviyyədə tanınmış tədris, tədqiqat və professional fəaliyyət;

**Son müraciət tarixi: 22 yanvar 2024-cü il**

**Qeyd:** İştirak üçün sənədlərin qəbulu qeyd olunan keçid vasitəsilə edilməlidir.

Proqramla bağlı əlavə suallar yaranarsa, ludovika.scholars@uni-nke.hu elektron poçt ünvanı ilə əlaqə saxlaya bilərsiniz.